**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA TURİZM SAHƏSİNİN POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **İsmayılşah Əliəddin oğlu İsmayılov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Aqrar iqtisadiyyat və turizm işi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Aygün Eldar qızı Quliyeva**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Arzu Nəcəf oğlu Həsənov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Elmira Məhəmmədovna Qocayeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Mətanət Əli qızı Abdalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Səbinə İzzət qızı Vəliyeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Müasir dövrdə iqtisadiyyatın müxtəlif sahələrinin tarazlı inkişafında mövcud resurslardan səmərəli istifadə olunması, onların üzə çıxarılması, maliyyə-investisiya axınlarının səmərəli idarə edilməsi, maliyyə vəsaitlərinin təyinatı üzrə istifadə olunması və s. bu kimi məsələlər çox mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, turizm sahəsində bu kimi məsələlərin ciddi şəkildə araşdırılması, müvafiq nəticələrin çıxarılması, uyğun qərarların verilməsi, nəzarət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi vacib şərtlərdəndir. Bu qeyd olunan şərtlər baxımından turizmin rolu daha da artmaqdadır.

Qeyd edək ki, göstərilən məsələlər Azərbaycanda xüsusilə aktualdır. Son illərdə ölkəmizdə turizm sahəsinin inkişaf etdirilməsi və ümumilikdə bu sektorun inkişafı üçün dövlət tərəfindən sistemli işlər görülməkdədir. Dövlət bu sahəyə kifayət qədər büdcə resursları yönəldir. Hər il demək olar ki, dövlət büdcəsindən turizmin inkişafına və bu sahənin dəstəklənməsinə xeyli vəsaitlər xərclənir. Dövlət tərəfindən turizmin inkişafına yönəldilmiş tədbirlərin və dəstək mexanizmlərinin əhatə dairəsi daha da genişlənməkdədir. Regionlarda maddi-texniki bazanın gücləndirilməsi, yolların təmir olunması və yeni yolların çəkilməsi, turizm və xidmət sahələri üçün subsidiyaların müəyyənləşdirilməsi, stimullaşdırıcı tədbirlərin görülməsi və s. daha böyük investisiyalar tələb edir. Şübhəsiz, bu vəsaitlərin təyinatı üzrə və səmərəli istifadə edilməsində maliyyə nəzarətinin və idarəetmə mexanizmlərinin rolu böyükdür.

Turizm institutunun gücləndirilməsi istiqamətində həyata keçirilən təşkilati-hüquqi və idarəetmə tədbirləri də diqqət çəkir. Ölkəmizdə turizm sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən əsas qurum Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyidir. Bu sahə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bundan əlavə, "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"[1]

---

[1] Azərbaycan iqtisadiyyatının inkişafının Strateji Yol Xəritəsi // – Bakı: Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2016-cı il tarixli Fərmanı.

ölkədə turizmin inkişafı üçün əsas strateji sənəd kimi qəbul olunmuş və hazırda icra mərhələsindədir. Ulu Öndər Heydər Əliyevin diqqəti sayəsində Azərbaycanda müstəqil turizm sistemi formalaşdırılmışdır. Turizm fəaliyyətinin və xidmətinin qanunvericilik bazasının yaradılması məqsədilə 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. 2016-cı ildə müasir tələblər baxımından bu Qanuna zəruri dəyişikliklər və əlavələr edilmişdir. Beləliklə, turizm institutunun inkişafının güclü hüquqi əsasları yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də turizm sisteminin daha da təkmilləşdirilməsinə və onun səmərəliliyinin artırılmasına ciddi önəm verir, bu sistemin inkişafına daim diqqət göstərir.

Qeyd olunan məsələlər və problemlər köklü tədqiqatların aparılmasını tələb edir. İlk növbədə, müasir şəraitdə iqtisadi dəyişikliklər nəzərə alınmaqla, turizmin inkişafında bu sahədəki müasir beynəlxalq təcrübənin araşdırılması, ölkəmizdə turizmin inkişafı proseslərində turizmin rolunun dəyərləndirilməsi və bununla da turizm mexanizmindən daha səmərəli istifadə edilməsi zərurəti meydana çıxır. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını ifadə edir.

Bir məsələyə də xüsusi diqqət yetirmək istərdik. Belə ki, ölkə Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"[2] qəbul olunmuşdur və hazırda bu Proqramın icrası gərgin mərhələdədir. Başlıca hədəflər postkonflikt ərazilərdə sosial-iqtisadi inkişafın təmin edilməsi, Böyük Qayıdış proseslərinin sürətləndirilməsi, səmərəli və şəffaf iqtisadiyyat quruculuğuna nail olunması və regionun resurslarından məhsuldar istifadə edilməsidir. Bu proseslərdə reallaşdırılacaq layihələrin turizm tədbirlərinin təşkili, turizm fəaliyyətinin qiymətləndirilməsi və kompleks təhlillərin aparılması məsələləri kifayət qədər aktual olaraq ön plana çıxmaqdadır.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək olar ki,

[2] "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" // – Bakı: Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı.

Azərbaycanda turizm sahəsinin potensialından səmərəli istifadə edilməsi istiqamətləri, eləcə də bu sahənin milli iqtisadiyyatdakı rolu, regional inkişafda əhəmiyyəti və rəqabət qabiliyyətinin artırılması məsələləri ilə bağlı həm yerli, həm də xarici alimlər tərəfindən müxtəlif tədqiqat işləri aparılmışdır. Azərbaycanlı tədqiqatçılardan akademik Səmədzadə Z.Ə., Quliyev E.A., Quliyeva A.E., Vəliyeva S.İ., İbrahimov İ.H., Əlirzayev Ə.Q., Əzizov A.Ə., Qafarov N.C., Həsənov A.N., Abadov M.K., Abdullayev K.N., Bağırlı S.H., Bilalov B.Ə., Gülalıyev Ç.G., Cabbarov Ə.X., Abbasova F.Q., Cəfərli V.V. və başqaları öz əsərlərində ölkənin turizm potensialının qiymətləndirilməsi, bu sahənin qeyri-neft sektorunun inkişafında rolu, regionlarda turizm infrastrukturunun qurulması, turizm iqtisadiyyatının idarə olunması, marketinq və brend siyasətinin formalaşdırılması, insan kapitalının gücləndirilməsi və turizm xidmətlərinin keyfiyyətinin artırılması ilə bağlı məsələləri araşdırmışlar. Xarici ölkə alimlərindən isə Alekseeva N.P., Birjakov M.B., Volkov Yu.F., Zaripova D.F., Dolnicar S., Brojak-Trzaskovska M., Comfort D., Kumar J., Pendit N., Rahimi M. və başqalarının elmi əsərlərində turizmin iqtisadi inkişafda rolu, davamlı və ekoloji turizm modelləri, rəqabətqabiliyyətli turizm məhsullarının formalaşdırılması, regional və kənd turizminin stimullaşdırılması, turizm siyasətində dövlət-özəl tərəfdaşlığı və innovativ yanaşmaların tətbiqi kimi aktual məsələlər geniş şəkildə işıqlandırılmışdır.

Həm yerli, həm də xarici tədqiqatlar göstərir ki, turizm sektorunun uğurla inkişaf etdirilməsi üçün yalnız mövcud resurs potensialının olması kifayət etmir, bu potensialdan səmərəli istifadə edilməsinə yönəlmiş koordinasiyalı siyasət, məqsədyönlü investisiyalar, hüquqi və institusional dəstək, eyni zamanda peşəkar insan resurslarının hazırlanması da mühüm əhəmiyyət daşıyır. Tədqiq etdiyimiz mövzu bu baxımdan aktual və çoxşaxəli tədqiqat istiqamətlərindən biri kimi çıxış edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasında turizm sahəsinin inkişafı proseslərində iştirak edən fəaliyyət sahələri və təşkilatlardır.

Tədqiqatın predmeti isə müasir dövrdə turizm sahəsinin inkişafında mövcud potensialdan səmərəli istifadə olunması, bu sahədə tətbiq

olunan mexanizmlərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması, eləcə də bu proseslərin iqtisadi və sosial təsirlərinin qiymətləndirilməsi məsələləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi müasir şəraitdə Azərbaycanın turizm sahəsinin potensialından istifadənin nəzəri əsaslarını müəyyənləşdirməklə bu sahədə mövcud imkanların təhlil olunması, turizm resurslarının səmərəli idarə olunması vəziyyətinin qiymətləndirilməsi və turizmin inkişafında istifadə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Dissertasiya işində qarşıya qoyulan əsas vəzifələr bunlardır:

- turizm sənayesində "potensial" kateqoriyasının mahiyyətinin müəyyən edilməsinə nəzəri yanaşmaların araşdırılması;
- Azərbaycanda turizm sahəsinin potensialından səmərəli istifadə edilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- turizm potensialından səmərəli istifadənin metodoloji prinsiplərinin ümumiləşdirilməsi;
- turizm sahəsinin inkişafına dair dünya təcrübəsinin araşdırılması;
- ölkədə turizm sənayesi potensialından səmərəli istifadə edilməsinin müasir vəziyyətinin təhlil edilməsi;
- Azərbaycanda turizm sahəsinin inkişaf dinamikasının araşdırılması və qiymətləndirilməsi;
- inkişaf potensialının ölkənin turizm sektorunun rəqabət qabiliyyətliliyinə təsiri məsələlərinə baxılması;
- milli iqtisadiyyatın turizm sahəsinin inkişaf perspektivlərinin araşdırılması;
- regionlarda turizmin inkişafı və həyata keçirilməsi mexanizmlərinin müəyyənləşdirilməsi;
- turizm sənayesində idarəetmə strategiyasının təkmilləşdirilməsi yollarının işlənib hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqatın gedişində sistemli yanaşmadan istifadəyə üstünlük verilmiş, turizm sahəsinin potensialından səmərəli istifadə imkanlarının müəyyənləşdirilməsi məqsədilə analitik və statistik təhlil üsullarından, müqayisəli təhlil, analiz və sintez

metodlarından, dinamika sıralarının təhlilindən, eləcə də analitik-hesablama metodundan istifadə olunmuşdur. Tədqiqat çərçivəsində turizmin iqtisadiyyatdakı rolu və onun regional inkişafda əhəmiyyəti müxtəlif göstəricilər əsasında qiymətləndirilmiş, bu sahədə mövcud problemlər və imkanlar iqtisadi modellərlə ümumiləşdirilmişdir. Nəzəri-metodoloji məsələlərin araşdırılması zamanı əsas etibarilə Azərbaycanın və xarici ölkələrin turizm sahəsində aparıcı tədqiqatçılarının elmi əsərlərinə istinad edilmişdir. Bundan əlavə, tədqiqat zamanı "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi", "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlar, Dövlət Turizm Agentliyinin, Dövlət Statistika Komitəsinin və müvafiq beynəlxalq təşkilatların (UNWTO, UNESCO və s.) analitik və metodoloji materiallarından geniş istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:

- Azərbaycanda turizm sektorunun mövcud inkişaf meyilləri və potensial imkanları nəzərə alınaraq, bu sahənin səmərəli idarə olunması və inkişaf etdirilməsi üçün elmi-metodoloji əsasların təhlil edilməsi və qiymətləndirilməsinə, müvafiq tədbirlər kompleksinin hazırlanmasına zərurət yaranmışdır;
- ölkəmizdə turizmin iqtisadiyyatın mühüm sahəsi kimi onun maliyyə nəticələrinin qiymətləndirilməsində və buna uyğun səmərəli tədbirlərin görülməsində, proqramların hazırlanması və həyata keçirilməsində turizmin rolu və əhəmiyyətinin artmasına ciddi ehtiyac yaranmışdır;
- postkonflikt ərazilər nəzərə alınmaqla turizm sektorunun inkişaf potensialının araşdırılması, resurs imkanlarının dəyərləndirilməsi və daha səmərəli fəaliyyət sahələrinin müəyyənləşdirilməsində əsaslandırılmış qiymətləndirməyə ehtiyacın olması diqqət çəkir;
- turizm sektorunun inkişafının təmin edilməsində qarşıya qoyulmuş hədəflərə çatmaqda bu sahənin rolunun artırılması üçün mövcud iqtisadi-hüquqi əsasların yeni tələblər baxımından tənzimlənməsi faydalı ola bilər;
- turizm sektorunun inkişafında maraqlı tərəflərin (dövlət, özəl sektor, qeyri-hökumət təşkilatları və s.) əməkdaşlığının

gücləndirilməsi və sistemli fəaliyyətin təmin edilməsi çox vacib amildir;
- turizm sektorunun inkişafı üçün strateji planlaşdırma və uzunmüddətli proqramların hazırlanması və həyata keçirilməsi zəruridir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Azərbaycanda turizm potensialının iqtisadi dəyərə çevrilməsini təmin edən inteqrasiya olunmuş idarəetmə modeli əsaslandırılmış, turizm sektorunun inkişafında dövlət, özəl sektor və digər iqtisadi sahələr arasında koordinasiyalı əməkdaşlığın zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır;
- qeyri-neft sektorunun inkişafında turizmin strateji rolunu qiymətləndirən konseptual yanaşma işlənilmiş, turizm investisiyalarının məşğulluğa, infrastrukturun inkişafına və xarici valyuta daxilolmalarına təsiri sistemli şəkildə müəyyən edilmişdir;
- işğaldan azad edilmiş Qarabağ iqtisadi rayonunun turizm potensialının səmərəli istifadəsi üçün regional turizm inkişaf modeli təklif edilmiş, mədəni, ekoloji və sağlamlıq turizmi istiqamətlərinin dayanıqlı inkişaf baxımından perspektivləri göstərilmişdir;
- Azərbaycan regionlarında turizm inkişafı üzrə mövcud disbalansların qiymətləndirilməsi əsasında diferensial regional inkişaf mexanizmi irəli sürülmüş, infrastruktur, nəqliyyat və insan kapitalının regional turizmə təsiri kompleks şəkildə müəyyən edilmişdir;
- "Take Another Look" milli turizm brendinin regional alt-brendlərlə tamamlanmasına əsaslanan brendinq yanaşması hazırlanmış, regional marketinq strategiyalarının beynəlxalq turizm bazarında rəqabət üstünlüyü yaratdığı elmi şəkildə qeyd edilmişdir;
- turizm sektorunda insan kapitalının inkişafı ilə xidmət keyfiyyəti arasındakı qarşılıqlı əlaqə müəyyən edilmiş, beynəlxalq standartlara uyğun kadr hazırlığı və sertifikatlaşdırma sisteminin tətbiqinin sektorun rəqabət qabiliyyətinə təsiri əsaslandırılmışdır;

- davamlı turizm və ekoturizmin inkişafı üçün institusional və hüquqi mexanizmlərin təkmilləşdirilməsi istiqamətində konseptual yanaşma işlənilmiş, ekoloji sertifikatlaşdırma və təbii resursların qorunmasının turizmin dayanıqlılığına təsiri göstərilmişdir;
- turizm sektorunda dövlət-özəl tərəfdaşlığının səmərəliliyini artıran institusional əməkdaşlıq modeli işlənilmiş, bu modelin turizm məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə, xidmət keyfiyyətinin yaxşılaşdırılmasına və sektorun dayanıqlı inkişafına təsiri elmi cəhətdən müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada əldə edilmiş elmi nəticələr gələcək tədqiqatlar üçün yetərli nəzəri baza olmaqla, Azərbaycanda turizm sahəsinin inkişafı prosesində mövcud resurslardan daha səmərəli istifadə olunması və bu sahənin iqtisadiyyatdakı rolunun artırılması istiqamətində həyata keçiriləcək məqsədli tədbirlərə elmi dəstək verə bilər. Eyni zamanda, tədqiqat çərçivəsində irəli sürülmüş təklif və tövsiyələr turizmin dövlət siyasətində prioritet sahə kimi inkişaf etdirilməsi, strateji planlaşdırma və investisiya qərarlarının formalaşdırılması, habelə turizm sektoruna yönəlik regional inkişaf proqramlarının hazırlanmasında faydalı ola bilər. Bundan əlavə, dissertasiya işinin nəzəri və metodoloji materiallarından ali təhsil müəssisələrində “Turizmin iqtisadiyyatı”, “Turizm idarəçiliyi”, “Regional inkişafda turizmin rolu”, “Strateji planlaşdırma” kimi fənlər üzrə mühazirələrin, dərslik və tədris vəsaitlərinin hazırlanmasında istifadə edilməsi mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu üzrə iddiaçının 5 məqalə və 3 tezisi, o cümlədən, 1 məqalə və 1 tezisi xaricdə olmaqla, Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, konfrans materiallarında dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları kimi “Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda turizm sənayesinin tərəqqisinə verdiyi töhfələr” (Bakı, 2025), “Turizm sənayesində “potensial” kateqoriyasının mahiyyətinin müəyyən edilməsinə nəzəri yanaşmalar” (Bakı, 2025), “Development prospects of the tourism sector of the national economy” (Пенза, 2025) adlı tezislər beynəlxalq və respublika konfranslarında öz əksini tapmışdır. Həmçinin, tədqiqatın

mövzusuna dair iddiaçının “Turizm resurslarından maksimum istifadənin metodologiyasının prinsipləri” (Bakı, 2024), “İnkişaf potensialının ölkənin turizm sektorunun rəqabət qabiliyyətliliyinə təsiri” (Bakı, 2025), “Turizm sahəsinin inkişafına dair dünya təcrübəsi” (Bakı, 2025), “Azərbaycanda turizm sənayesi potensialından səmərəli istifadə edilməsinin müasir vəziyyəti” (Bakı, 2025), “Development dynamics of the tourism sector in Azerbaijan” (Москва, 2025) adlı məqalələri nüfuzlu jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Giriş (13899 işarə), I fəsil (69882 işarə), II fəsil (59377 işarə), III fəsil (77827 işarə), nəticə (9440 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (17510 işarə) üzrə ümumi həcm 260236 işarədir. Dissertasiyada 12 cədvəldən, 1 sxemdən və 1 diaqramdan istifadə olunmuşdur. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 230425 işarədir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin **“Turizm sənayesi potensialından səmərəli istifadə edilməsinin konseptual əsasları”** adlanan I fəslində turizm sənayesində “potensial” kateqoriyasının mahiyyətinin müəyyən edilməsinə nəzəri yanaşmalar, turizm potensialından səmərəli istifadənin metodoloji prinsipləri və inkişaf potensialının ölkənin turizm sektorunun rəqabət qabiliyyətliliyinə təsiri şərh edilir.

Turizm sənayesində “potensial” anlayışı inkişaf, güc və performans qabiliyyətini əhatə edir. Turizm kontekstində potensial, bir turizm sahəsinin ziyarətçiləri cəlb etmək və inkişaf etdirmək qabiliyyəti kimi

başa düşülür. Nyoman S. Pendit[3] potensialı gizli imkanlar və fərdi təşəbbüs vasitəsilə inkişaf edə bilən anadangəlmə bacarıq kimi müəyyən edir, bu isə turistlərlə turizm sahəsi arasında simbiotik əlaqəni göstərir. Turistlərin sayının artması ərazinin cəlbediciliyinin təbii inkişafına və turizm sahəsinin estetik və funksional inkişafına təsir göstərir.

Turizm gəlirlərinə əsaslanan ölkələr milli infrastruktura sərmayə yatıraraq turistlər üçün təhlükəsiz və qabaqcıl imkanlar təmin edir. Bu isə yolların, parkların, hava limanlarının və sosial infrastrukturun inkişafına səbəb olur, yerli əhali üçün isə iqtisadi və təhsil imkanlarını artırır. Turizm eyni zamanda sərgilər, konfranslar və digər tədbirlər vasitəsilə mədəni mübadiləni təşviq edir. Ə.Cabbarov[4] turizmi mədəniyyətin inkişafı və fərdlərin sosial tərəqqisi üçün vacib amil hesab edir, çünki turizm mədəni irsin qorunmasını və yerli icmaların dayanıqlı inkişafını təmin edir.

Turizmin iqtisadi təsiri birbaşa, dolayı və induksiya edilmiş təsirlər vasitəsilə ölçülür. Bunun üçün Turizm Peyk Hesabı, Input-Output modelləri, Sosial Mühasibat Matrisi və Hesablana bilən Ümumi Tarazlıq Modelləri istifadə olunur. Bu metodologiyalar turizmin milli və regional iqtisadiyyata, iş yerlərinə, infrastruktur inkişafına və insanların həyat səviyyəsinə verdiyi töhfələri qiymətləndirməyə imkan verir.

Beynəlxalq təcrübə göstərir ki, turizmin inkişafı yalnız infrastruktur və marketinqdən deyil, həm də ölkənin resurs potensialına və fərdiləşdirilmiş siyasətlərinə əsaslanmalıdır. İspaniya və Tayland miqyas və əlçatanlıqla, İslandiya və Yeni Zelandiya isə davamlı və mədəni inteqrasiya olunmuş yanaşmalarla uğur qazanır. Turizmin təşviqi regionlarda yeni iş yerləri yaradaraq işsizliyi azaldır, istehlakı və ÜDM-i artırır, sosial rifahı və həyat keyfiyyətini yüksəldir. Beləliklə, turizm iqtisadiyyat, mədəniyyət, sosial inkişaf və ekoloji davamlılıq baxımından ölkələr üçün strateji əhəmiyyət daşıyan sənaye sahəsidir. Rəqabət qabiliyyətinin artırılması üçün Azərbaycan regional və beynəlxalq bazarlarla inteqrasiyanı genişləndirməli, turist axınını

---

[3] Pendit N.S. Ramayana. Gramedia Pustaka Utama, - 2006, - 361 p.

[4] Cabbarov, Ə. Turizmin iqtisadi əsasları / Ə.Cabbarov – Bakı: ADPU nəşriyyatı, - 2015, – 267 s.

şaxələndirməli və turizm məhsullarını — sağlamlıq, işgüzar, mədəni, kənd və idman turizmi üzrə — fərqləndirməlidir. İnfrastrukturun balanslaşdırılması, turizm təhsilinin beynəlxalq səviyyəyə uyğunlaşdırılması, Qarabağ bölgəsinin inteqrasiyası, yeni brend və marşrutların hazırlanması, dövlət-özəl tərəfdaşlığının stimullaşdırılması kimi tədbirlər inkişaf potensialının real iqtisadi nəticələrə çevrilməsinə imkan yaradır. Nəticədə, bu strategiyalar Azərbaycanın turizm sektorunu daha rəqabətqabiliyyətli və davamlı etməklə milli iqtisadiyyata əhəmiyyətli töhfə verə bilər.

Dissertasiya işinin **"Azərbaycanda turizm sahəsinin potensialından səmərəli istifadə edilməsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi**" adlanan II fəslində Azərbaycanda turizm sənayesi potensialından səmərəli istifadə edilməsinin müasir vəziyyəti, Azərbaycanda turizm sahəsinin inkişaf dinamikası və inkişaf potensialının ölkənin turizm sektorunun rəqabət qabiliyyətliliyinə təsiri məsələləri araşdırılmış və təhlil edilmişdir.

Azərbaycanın turizm sənayesi zəngin təbii-coğrafi və mədəni resurslara malikdir, sağlamlıq, ekoturizm, macəra, gastronomiya və digər sahələrdə inkişaf üçün əlverişli imkanlar yaradır. Son illərdə turist gəlişləri 2,6 milyona çatmış və gəlirlər artmışdır, lakin potensial hələ tam istifadə olunmur. Əsas problemlər infrastrukturun bərabər səviyyədə olmaması, xidmət keyfiyyətinin beynəlxalq standartlara uyğun gəlməməsi, insan kapitalının çatışmazlığı və marketinq strategiyalarının qeyri-effektivliyi ilə bağlıdır (cədvəl 1).

Cədvəl 1-dən göründüyü kimi, 2024-cü ildə Azərbaycana gələn xarici vətəndaşların sayında və coğrafiyasında əhəmiyyətli artım müşahidə olunmuşdur. Ən çox turist göndərən ölkə Rusiya olmuş, buradan gələnlərin sayı 731 942 nəfərə çataraq 2023-cü illə müqayisədə 17,09% artmışdır. İkinci yerdə qərarlaşan Türkiyədən 425 981 nəfər turist gəlmiş və artım 12,63% təşkil etmişdir. Ən yüksək artım isə Hindistan, Çin və Cənubi Koreya bazarlarında qeydə alınmış, bu da Azərbaycanın Asiya ölkələri ilə turizm əlaqələrinin gücləndiyini göstərmişdir. Qazaxıstan və Pakistan kimi Mərkəzi Asiya ölkələrindən gələn turist axınının da əhəmiyyətli dərəcədə artması yeni turizm bazarlarının formalaşdığını nümayiş etdirir. Eyni zamanda, Səudiyyə Ərəbistanı, Küveyt və BƏƏ kimi Yaxın Şərq ölkələri üzrə də müsbət

**Cədvəl 1.**

**Ölkəyə gələn xarici vətəndaşların sayı (2023-2024)**

| Ölkə | 2023 (nəfər) | 2024 (nəfər) | 2024/2023 (%) |
|---|---|---|---|
| Rusiya | 625 106 | 731 942 | +17.09 |
| Türkiyə | 378 204 | 425 981 | +12.63 |
| Hindistan | 117 302 | 243 633 | +107.70 |
| İran | 165 346 | 210 081 | +27.06 |
| Gürcüstan | 104 473 | 111 300 | +6.54 |
| Səudiyyə Ərəbistanı | 79 082 | 96 153 | +21.59 |
| Qazaxıstan | 58 072 | 86 302 | +48.61 |
| Pakistan | 55 161 | 80 919 | +46.70 |
| Birləşmiş Ərəb Əmirlikləri | 39 963 | 46 731 | +16.93 |
| Özbəkistan | 39 652 | 46 391 | +17.00 |
| Çin | 23 804 | 44 798 | +88.20 |
| Türkmənistan | 28 137 | 35 728 | +26.98 |
| Küveyt | 25 663 | 31 369 | +22.23 |
| İsrail | 23 408 | 28 954 | +23.69 |
| Belarus | 21 790 | 26 308 | +20.73 |
| Böyük Britaniya | 21 559 | 25 693 | +19.18 |
| Oman | 17 053 | 24 144 | +41.58 |
| ABŞ | 16 965 | 22 927 | +35.14 |
| Almaniya | 17 062 | 21 731 | +27.36 |
| Cənubi Koreya | 7 983 | 15 004 | +87.95 |
| **Digər ölkələr** | **220 005** | **270 590** | **+22.99** |
| **Ümumi** | **2.085.790** | **2 626 679** | **+25.93** |

*Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/source/tourism/?lang=en*

dinamika müşahidə edilmişdir. Avropa və Şimali Amerika ölkələrindən gələn turistlərin sayının artması Azərbaycanın beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin yüksəldiyini göstərir. Ümumilikdə, nəticələr ölkədə həyata keçirilən turizm siyasətinin səmərəliliyini və bazarların uğurla diversifikasiya olunduğunu təsdiq edir.

Azərbaycanda turizmin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahədə bir sıra strateji proqramlar və təşəbbüslər həyata keçirilmişdir. 2011-ci ilin "Turizm ili" elan

edilməsi bu sahəyə güclü təkan vermişdir. 1999-cu ildə qəbul edilmiş "Turizm haqqında" qanun sektorun hüquqi əsaslarını müəyyən etmişdir.

"ASAN Viza" sisteminin tətbiqi turistlərin ölkəyə gəlişini xeyli asanlaşdırmış və turist axınına müsbət təsir göstərmişdir. 2022-2026-cı illər üçün təsdiq edilmiş "Azərbaycan Respublikasının Sosial-İqtisadi İnkişaf Strategiyası" turizmin inkişafı üçün doqquz təməl prioritet müəyyən edir. Bu prioritetlər dayanıqlılıq, təhlükəsizlik, özəl sektorun cəlb olunması, əlçatanlıq və inklüzivlik kimi ümumiləşdirici faktorları nəzərə alır. Bu prosesin nəticələri diaqramda daha aydın əks etdirilmişdir. Diaqram turizm sənayesinin inkişafına təsir edən əsas amillərin müqayisəli qiymətləndirilməsini təqdim edərək, dövlət dəstəyi, turizm infrastrukturu, nəqliyyat, rəqəmsallaşma və insan resurslarının sektorun inkişafındakı rolunu vizual şəkildə nümayiş etdirir.




**Diaqram. Turizm sənayesinin inkişaf göstəricilərinin amillər üzrə qiymətləndirilməsi (2024)**

*Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır https://www.stat.gov.az/source/tourism/?lang=en*

Diaqramın təhlili göstərir ki, turizm sektorunun inkişafında dövlət dəstəyi (91 bal) və turizm infrastrukturu (88 bal) ən yüksək qiymətləndirilən amillərdir. Son illərdə həyata keçirilən dövlət

proqramları, turizm strategiyaları, regionlarda infrastruktur layihələrinin icrası və investisiya təşviqi sektorun inkişafına mühüm təsir göstərmişdir. Nəqliyyat infrastrukturu (84 bal) və hotel sektoru (81 bal) da yüksək göstəricilər nümayiş etdirir ki, bu da beynəlxalq hava əlaqələrinin genişlənməsi, yeni hotellərin istifadəyə verilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi ilə əlaqədardır. Digər tərəfdən, rəqəmsallaşma (76 bal) və marketinq fəaliyyəti (73 bal) üzrə inkişaf müşahidə olunsa da, bu istiqamətlərdə beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün əlavə tədbirlərə ehtiyac vardır. Ən aşağı göstərici insan resursları (69 bal) üzrə qeydə alınmışdır ki, bu da peşəkar kadr hazırlığının, xarici dil biliklərinin və xidmət mədəniyyətinin daha da təkmilləşdirilməsinin vacibliyini göstərir. Ümumilikdə, qiymətləndirmə nəticələri Azərbaycanın turizm sənayesinin inkişafı üçün möhkəm institusional baza formalaşdığını, lakin sektorun dayanıqlı inkişafının təmin edilməsi məqsədilə rəqəmsal texnologiyaların tətbiqi, marketinq fəaliyyətinin genişləndirilməsi və insan kapitalına investisiyaların artırılmasının prioritet istiqamətlər olduğunu göstərir.

Azərbaycan Turizm Bürosu (ATB) ölkənin mövcud sərvətlərini gücləndirərək yeni turizm təcrübələri yaratmışdır. Bunlara 16 yeni haykinq marşrutunun açılması, “Slow Food Səyahət” modelinin tətbiqi, quş müşahidəsi üçün turizm zonalarının inkişafı və Palçıq Vulkanları Turizm Kompleksinin təməlinin qoyulması daxildir. Həmçinin, Azərbaycanın “Global Tourism Plastic Initiative”ə qoşulması sektorun ətraf mühitə olan öhdəliyini nümayiş etdirir. Regional inkişaf siyasəti çərçivəsində Turizm İnformasiya Mərkəzləri regional idarələrə çevrilir və Mədəni İrsin Qorunması və İdarə Edilməsi Mərkəzi (QİM) mədəni irs obyektlərində dövlət-özəl tərəfdaşlığı layihələrini həyata keçirir. Bu təşəbbüslər turizm sektorunun hərtərəfli inkişafına yönəldilmişdir. Azərbaycanın turizm potensialı böyük olsa da, onun tam səmərəli istifadəsinə mane olan bir sıra ciddi çətinliklər mövcuddur. Bu çətinliklər sektorun rəqabətqabiliyyətliliyini və dayanıqlı inkişafını məhdudlaşdırır.

**Cədvəl 2.**

**Azərbaycanda otel və otel tipli müəssisələrin sayı və tutumu (2004-2024)**

| Göstərici | 2004 | 2024 | Dəyişiklik (dəfə) |
|---|---|---|---|
| Mehmanxana və otel tipli müəssisələrin sayı (vahid) | 111 | 859 | 7.7 |
| Birdəfəlik tutum (min yer) | 11.0 | 67.4 | 6.1 |

*Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır https://www.stat.gov.az/source/tourism/?lang=en*

Cədvəl 2-də təqdim olunan məlumatlara əsasən, 2004–2024-cü illərdə Azərbaycanda mehmanxana və otel tipli müəssisələrin sayı 111 vahiddən 859 vahidə yüksələrək təxminən 7.7 dəfə artmışdır. Eyni dövrdə birdəfəlik yerləşdirmə tutumu 11.0 min yerdən 67,4 min yerə çataraq 6.1 dəfə artmışdır. Bu dinamika ölkədə turizm infrastrukturunun sürətli inkişafını, turizm sektoruna yönəldilən investisiyaların artmasını və yerləşdirmə xidmətlərinə olan tələbatın genişlənməsini əks etdirir. Xüsusilə Bakı şəhərində və regionlarda yeni otellərin tikilməsi, beynəlxalq tədbirlərin keçirilməsi və dövlət tərəfindən turizmin inkişafına göstərilən dəstək bu artımın əsas amilləri olmuşdur. Bu meyl Azərbaycanın turizm potensialının güclənməsinə və turizm sektorunun iqtisadi inkişafda rolunun artmasına mühüm töhfə vermişdir.

2024-cü ildə Azərbaycanın regionlarında turizm potensialı əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Bakıdan əlavə, Qəbələ, Şəki-Zaqatala və Quba-Xaçmaz kimi regionlar turizm obyektləri ilə zəngindir. Regional turizmin inkişafı üçün hava limanları və nəqliyyat infrastrukturu təkmilləşdirilməli, turistlər üçün əlçatanlıq artırılmalıdır. Hökumət və özəl sektor birgə çalışaraq otellərin, restoranların və əyləncə məkanlarının keyfiyyətini yüksəldir, su, elektrik və internet kimi xidmətlərin təminatını gücləndirir. Azərbaycan Dövlət Turizm Agentliyi və Turizm Bürosu ölkənin turizm imkanlarını MDB, Avropa, Asiya və Yaxın Şərq bazarlarında fəal təbliğ edir. Dövlət dəstəyi, vergi güzəştləri və Turizm haqqında Qanun sektorun hüquqi və iqtisadi əsaslarını möhkəmləndirir. Turizm təhsili və peşə hazırlığı ixtisaslı kadrların təminatı üçün vacibdir, Sumqayıtda Qastroturizm Akademiyası bu sahədə nümunədir.

Məşğulluğa gəldikdə, 2019-cu ildə Azərbaycanın turizm sektorunda 45 min nəfər çalışırdı. Onlardan 30 min nəfər otel və restoranlarda, 8 min nəfər kənd turizmində, 7 min nəfər isə digər sahələrdə işləyirdi. 2020-ci ildə pandemiyanın təsiri ilə ümumi məşğulluq sayı 38 min nəfərə qədər azaldı. Lakin 2021-ci ildən başlayaraq məşğulluq səviyyəsində artım müşahidə edildi və 2023-cü ilə qədər 44 min, 2024-cü ildə isə 46 min nəfərə çatdı (cədvəl 3).

**Cədvəl 3.**

**Azərbaycanda turizm sektorunun ÜDM-ə və məşğulluğa xüsusi çəkisi (2019-2024)**

| İl | Turizmin ÜDM-də payı (%) | Turizmdə ümumi məşğulluq sayı | Otel və restoran-larda ümumi məşğulluq | Kənd turizmində ümumi məşğulluq | Digər məşğulluq sayı |
|---|---|---|---|---|---|
| 2019 | 3.5 | 45.000 | 30.000 | 8.000 | 7.000 |
| 2020 | 2.2 (pandemiya təsiri) | 38.000 | 25.000 | 6.000 | 7.000 |
| 2021 | 2.5 % (bərpa mərhələsi) | 40.000 | 26.000 | 7.000 | 7.000 |
| 2022 | 3.0 % (bərpa davam edir) | 42.000 | 28.000 | 7.000 | 7.000 |
| 2023 | 3.4 % (bərpa davam, artım) | 44.000 | 30.000 | 8.000 | 6.000 |
| 2024 | 4 % – 4.7 % (təxmini yüksək səviyyə) | 46.000 | 33.000 | 10.000 | 9.000 |

*Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır https://www.stat.gov.az/source/tourism/?lang=en*

Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edir və UNWTO ilə əməkdaşlıq çərçivəsində “Turizmdə İqlim Fəaliyyətinin Gücləndirilməsi Təşəbbüsü”nü həyata keçirir, dayanıqlı turizmin təşviqini təmin edir. COVID-19-dan sonra bərpa, xüsusilə daxili turizmin sürətli artımı sektorun dayanıqlığını göstərir. Mənbə bazarların şaxələndirilməsi, yüksək və büdcəli otellərin balanslı inkişafı, xidmət keyfiyyətinin yaxşılaşdırılması və tədbirlərin təşviqi dayanıqlı və inklüziv böyüməni dəstəkləyir. Orta müddətli

perspektivdə 4 milyon xarici və 6 milyon daxili turistin gəlməsi proqnozlaşdırılır, bu isə infrastruktur, insan kapitalı və beynəlxalq tanıtım sahələrinə məqsədyönlü investisiyaları tələb edir. Azərbaycan turizmi iqtisadi artım, iş yerlərinin yaradılması və ölkənin beynəlxalq imicinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

2024-cü ildə əsas trendlərdən biri qorunan təbii ərazilərə gələn ziyarətçilərin sayının artmasıdır. Bu, ekoloji cəhətdən təmiz turizm təcrübələrinə artan tələbatı göstərir və Azərbaycanın turizm strukturunun şəhər və mədəni turizmdən kənara tədricən şaxələndirilməsini göstərir (cədvəl 4).

**Cədvəl 4.**

**Azərbaycandakı Milli Parklara ziyarətçi sayı (2022-2023-2024)**

| Göstəricilər | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| **Milli parklara ümumi ziyarətçi sayı (nəfər)** | **276 703** | **223 549** | **224 638** |
| **Ən çox ziyarət edilən milli parklar** | Göygöl, Şahdağ, Abşeron | Göygöl, Şahdağ, Abşeron | Göygöl, Şahdağ, Abşeron |
| **İl üzrə əsas ekoloji təşəbbüs** | Biomüxtəlifliyin qorunması və ekoturizmin inkişafı | Milli parklarda ekoturizm infrastrukturunun genişləndirilməsi | **“Yaşıl Dünya Naminə Həmrəylik İli”** çərçivəsində ekoloji turizmin təşviqi |

*Mənbə: https://tourism.gov.az/en/page/statistics məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır*

Məlumatlar göstərir ki, 2022-ci ildə Azərbaycandakı milli parklara 276 703 nəfər ziyarət etmişdir. 2023-cü ildə bu göstərici 223 549 nəfərə enərək, təxminən 19,2% azalmışdır. 2024-cü ildə isə milli parklara maraq yenidən artmış və ziyarətçilərin sayı 224 638 nəfərə çatmışdır. Artım böyük olmasa da (0,5%), ekoturizmin inkişafı, milli parkların beynəlxalq səviyyədə tanıdılması və "Yaşıl Dünya Naminə Həmrəylik İli" çərçivəsində həyata keçirilən tədbirlər bu sahədə müsbət dinamikanın formalaşmasına şərait yaratmışdır. Hər üç il ərzində Göygöl, Şahdağ və Abşeron milli parkları ən çox ziyarət edilən təbiət əraziləri olmuşdur.

**Cədvəl 5.**

**Azərbaycanda turizmin inkişafının əsas göstəriciləri (2022-2023-2024)**

| Göstəricilər | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Xarici vətəndaşların sayı (nəfər) | 1 602 600 | 2 086 548 | 2 626 838 |
| İllik artım tempi (%) | 102.0 | 30.2 | 25.09 |
| Gecələmələrin sayı (milyon) | 3.14 | 3.42 | 4.28 |
| Hotellərin və hotel tipli obyektlərin gəlirləri (mln AZN) | 450.6 | 488.9 | 694.2 |
| Hotellərin orta doluluq səviyyəsi (%) | 18.02 | 20.1 | 24.0 |
| Milli parklara ziyarətçi sayı (nəfər) | 276 703 | 223 549 | 224 638 |
| Turizm agentliklərinin gəlirləri (mln AZN) | 72.8 | 91.5 | 118.4 |
| Turizm sektorunda məşğul olanların sayı (min nəfər) | 48.6 | 51.9 | 55.3 |

*Mənbə: https://stat.gov.az/news/index.php?id=6164&lang=en məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır*

5-ci cədvəlin təhlili göstərir ki, 2022–2024-cü illərdə Azərbaycanda turizm sektoru dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Xarici vətəndaşların sayı 2022-ci ildə 1,6 milyon nəfər olduğu halda, 2023-cü ildə 2,08 milyona, 2024-cü ildə isə 2,6 milyon nəfərə yüksəlmişdir. Bu artım ölkədə həyata keçirilən turizm siyasətinin, beynəlxalq marketinq fəaliyyətinin və hava nəqliyyatı əlaqələrinin genişlənməsinin müsbət nəticəsi kimi qiymətləndirilə bilər. Eyni zamanda, hotellərdə gecələmələrin sayı 3,14 milyondan 4,28 milyona yüksəlmiş, hotellərin gəlirləri isə 450,6 milyon manatdan 694,2 milyon manata çatmışdır. Hotellərin orta doluluq səviyyəsinin 18,2%-dən 24,0%-ə qədər artması mövcud turizm infrastrukturundan daha səmərəli istifadə olunduğunu göstərir. Milli parklara ziyarətçilərin sayında 2023-cü ildə müəyyən azalma müşahidə edilsə də, 2024-cü ildə yenidən artım qeydə alınmışdır. Bundan əlavə, turizm agentliklərinin gəlirlərinin və sektorda məşğul olanların sayının artması turizmin qeyri-neft sektorunda iqtisadi fəallığın genişlənməsinə mühüm töhfə verdiyini təsdiq edir. Ümumilikdə, təhlil göstərir ki, 2022–2024-cü illərdə turizm sektorunda əldə olunan müsbət nəticələr Azərbaycanın beynəlxalq

turizm bazarında rəqabət qabiliyyətinin yüksəldiyini və turizmin dayanıqlı iqtisadi inkişafın vacib istiqamətlərindən birinə çevrildiyini göstərir.

Bir ölkənin turizm sektorunun inkişaf potensialı onun rəqabət qabiliyyətinə birbaşa və çoxölçülü təsir göstərir. Təbii və mədəni ehtiyatlar, infrastruktur, insan kapitalı, institusional çərçivələr, davamlılıq təcrübələri və marketinq strategiyaları bir ölkənin qlobal turizm bazarında özünü nə dərəcədə səmərəli şəkildə yerləşdirə biləcəyini birlikdə müəyyən edir. Lakin, təkcə potensial uğura zəmanət vermir; səmərəli idarə olunmalı, strateji cəhətdən inkişaf etdirilməli və davamlı şəkildə istifadə olunmalıdır. Bu ölçüləri ardıcıl turizm inkişaf strategiyasına uğurla inteqrasiya edən ölkələrin turizm sənayesində uzunmüddətli rəqabətə, iqtisadi artıma və beynəlxalq səviyyədə tanınmağa nail olma ehtimalı daha yüksəkdir.

Dissertasiya işinin **"Azərbaycanın turizm sənayesinin perspektiv inkişafının və səmərəliliyinin artırılması istiqamətləri"** adlanan III fəslində milli iqtisadiyyatın turizm sahəsinin inkişaf perspektivləri, regionlarda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı və həyata keçirilməsi mexanizmləri və turizm sənayesində idarəetmə strategiyasının təkmilləşdirilməsi yolları şərh edilir.

Azərbaycanın zəngin təbii və mədəni irsi, strateji mövqeyi və modern infrastrukturu turizm sahəsinin milli iqtisadiyyatın lokomotivinə çevrilməsi üçün möhkəm zəmin yaradır. Davamlı investisiyalar, strateji planlaşdırma və innovativ yanaşmalar bu potensialın reallaşdırılmasına imkan verəcəkdir (cədvəl 3).

Azərbaycanda turizm sektoru əsasən mövsümi xarakter daşıyır və fəaliyyətin böyük hissəsi yay aylarında cəmləşir. Bu vəziyyət pik mövsümdə qiymətlərin artmasına, digər dövrlərdə isə turizm müəssisələrinin fəaliyyətinin zəifləməsinə səbəb olur. Qış turizmi mərkəzlərində müasir infrastruktur olsa da, yüksək qiymətlər yerli turistlərin bu xidmətlərdən az istifadə etməsinə gətirib çıxarır. Nəticədə bir çox vətəndaş daha əlverişli qiymət və xidmət keyfiyyəti səbəbindən Türkiyə və Gürcüstan kimi ölkələrə üz tutur. Bu problemi aradan qaldırmaq üçün hökumət 2023–2026-cı illər üzrə turizm strategiyasını qəbul etmişdir. Strategiya dövlət idarəçiliyinin

təkmilləşdirilməsi, turizm məhsullarının şaxələndirilməsi, rəqəmsallaşma, investisiyaların artırılması və insan resurslarının inkişafı kimi prioritetlərə əsaslanır. Bu tədbirlər turizmin dayanıqlı inkişafını təmin etməyə yönəlib.

**Cədvəl 6.**

**Azərbaycanın əsas turizm bölgələri və ixtisaslaşmaları**

| Turizm bölgəsi | Əsas turizm növləri | Unikal cəlbedici xüsusiyyətlər |
|---|---|---|
| Bakı-Abşeron | İdrak turizmi, müalicə-sağlamlıq, idman, işgüzar | İçərişəhər (UNESCO), Qız Qalası, Şirvanşahlar Sarayı, Atəşgah, Yanardağ, Qobustan, Xəzər çimərlikləri, müasir Olimpiya kompleksləri |
| Quba-Xaçmaz | İstirahət-əyləncə, idrak turizmi, idman | Şahdağ, Tufandağ (dağ zirvələri), Şahdağ Milli Parkı, Təngəaltı dərəsi, Afurca şəlaləsi, Yalama və Nabran çimərlikləri, Çıraqqala, Beşbarmaq qayası |
| Cənub (Lənkəran-Masallı) | İstirahət-müalicə, idrak turizmi | Subtropik iqlim, İstisu mineral suları, Qızılağac DTQ, Hirkan MP, Babək qalası, Lerikdə dağ turizmi potensialı |
| Şəki-Zaqatala | İdrak turizmi, ekoturizm, macəra | Böyük Qafqaz dağları, mineral bulaqlar, dağ gölləri, şəlalələr, Şəki Xan Sarayı, Kiş məbədi, karvansaralar, Gələrsən-görəsən qalası |
| Qərb (Gəncə-Qazax) | Tarixi, mədəni, ekoturizm | Gəncənin tarixi abidələri, Göygöl Milli Parkı, müxtəlif iqlim zonaları |

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*[5]

Cədvəl 6-dan göründüyü kimi, ölkənin turizm potensialı regionlar üzrə müxtəlif istiqamətlərdə formalaşmışdır. Abşeron yarımadası işgüzar və mədəni turizm, Quba-Xaçmaz və Şəki-Zaqatala bölgələri ekoturizm və dağ turizmi, Lənkəran-Astara sağlamlıq və ekoloji turizm, Naxçıvan isə müalicə və tarixi-mədəni turizm üzrə ixtisaslaşmışdır. Son illərdə bu potensialın daha səmərəli istifadəsi məqsədilə regionlarda turizm infrastrukturunun inkişafı, xidmət keyfiyyətinin yüksəldilməsi və investisiya layihələrinin həyata

[5] *Məmmədov, Z.S. Regionların iqtisadi inkişaf problemləri / Z.S.Məmmədov – Bakı: Elm, – 2017. – 465 s.*

keçirilməsi prioritet istiqamətlərdən biri olmuşdur.

Xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafı dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Bu ərazilərdə beynəlxalq hava limanlarının, avtomobil yollarının, hotellərin və digər turizm obyektlərinin tikintisi turizm fəaliyyətinin bərpası üçün əlverişli şərait yaratmışdır. Şuşa, Laçın, Kəlbəcər və Zəngilanın zəngin təbii-landşaft ehtiyatları, mineral su mənbələri, tarixi və mədəni irsi ekoloji, sağlamlıq, qış və mədəni turizmin inkişafı üçün geniş imkanlar təqdim edir. Eyni zamanda, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, rəqəmsal turizm xidmətlərinin tətbiqi, beynəlxalq turizm marşrutlarına inteqrasiya və yerli əhalinin turizm fəaliyyətinə cəlb olunması regionlarda dayanıqlı turizmin inkişafının əsas həyata keçirilmə mexanizmləri kimi çıxış edir. Bu tədbirlər regionların sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, Azərbaycanın turizm sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsinə də mühüm töhfə verir. Nəticədə, turizm sektorunun gələcəyi davamlılıq, texnologiyanın tətbiqi, fərdiləşdirilmiş xidmətlər, böhranlara dayanıqlılıq və maraqlı tərəflərin əməkdaşlığına əsaslanan vahid idarəetmə yanaşmasından asılıdır.

## NƏTİCƏ

Başa çatdırdığımız dissertasiya işinin nəticələri, yeni elmi yanaşmaları, təklif və tövsiyələri aşağıdakı kimi ümumiləşdirilmişdir.

1. Azərbaycan geniş təbii-coğrafi imkanlara, zəngin mədəni irsə və əlverişli iqlim şəraitinə malik olmaqla yüksək turizm potensialına sahibdir. Lakin bu potensialın real iqtisadi dəyərə çevrilməsi üçün təkcə resursların mövcudluğu kifayət etmir – bunun üçün strateji planlaşdırma, sektorlararası koordinasiya və institusional əməkdaşlıq zəruridir. Turizm fəaliyyətinin uğurlu təşkili nəqliyyat, mədəniyyət, ekologiya, kənd təsərrüfatı, infrastruktur və digər sahələrlə paralel və əlaqəli şəkildə inkişaf etdirilməlidir. Turizm siyasəti yalnız müvafiq agentliyin səlahiyyəti ilə məhdudlaşmamalı, digər qurumlar və özəl sektorun fəal iştirakı ilə kompleks yanaşma əsasında formalaşdırılmalıdır. Yalnız bu halda ölkənin geniş turizm imkanları

milli iqtisadiyyat üçün davamlı gəlir mənbəyinə çevrilə bilər.

2. Turizm sektoru Azərbaycanın milli iqtisadiyyatının şaxələndirilməsi baxımından prioritet sahələrdən biri hesab olunur və qeyri-neft gəlirlərinin artırılmasında mühüm rol oynayır. Ölkədə aparılan iqtisadi islahatlar çərçivəsində hökumət son illərdə neftdənkənar sektorların, xüsusilə də turizmin inkişafına xüsusi diqqət yetirir. Bu sahəyə yönəldilən dövlət və özəl investisiyalar nəticəsində yeni iş yerləri yaradılır, xidmət və infrastruktur sektoru genişlənir, eyni zamanda xarici valyuta axını güclənir. 2024-cü ildə 2 milyondan çox turistin Azərbaycana səfər etməsi göstərir ki, turizm artıq təkcə mədəni və sosial deyil, həm də ciddi iqtisadi əhəmiyyət kəsb edən strateji alətə çevrilmişdir. Bu meylin davamlı olması üçün turizm siyasəti daha çox innovasiya, davamlılıq və rəqabətlilik prinsipləri üzərində qurulmalı, sahənin iqtisadi səmərəsi daha da artırılmalıdır.

3. Qarabağ bölgəsinin işğaldan azad edilməsi Azərbaycanın turizm sektorunda tamamilə yeni bir mərhələnin başlanmasına şərait yaratmış və ölkənin turizm xəritəsinin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Şuşa, Laçın, Kəlbəcər, Zəngilan və digər azad olunmuş ərazilər zəngin təbii ehtiyatları, mədəni-tarixi irsi və müalicəvi iqlim şəraiti ilə mədəni, ekoturizm və sağlamlıq turizmi üçün geniş imkanlar təqdim edir. Bu regionların turizm dövriyyəsinə inteqrasiyası yalnız infrastruktur quruculuğu və təhlükəsizlik tədbirləri ilə məhdudlaşmamalı, eyni zamanda ərazilərin unikal xüsusiyyətlərini əks etdirən turizm brendlərinin yaradılması və beynəlxalq miqyasda tanıdılması ilə müşayiət olunmalıdır. Qarabağda turizm fəaliyyətlərinin formalaşdırılması postkonflikt dövründə həm iqtisadi canlanma, həm də sosial reabilitasiya üçün mühüm alətə çevrilə bilər. Bu baxımdan, regionda dayanıqlı turizmin əsasları qurulmalı, yerli icmaların bu prosesə inteqrasiyası və təbii-mədəni sərvətlərin qorunması təmin edilməlidir.

4. Azərbaycanda regionlar üzrə turizmin inkişaf səviyyəsi bərabər deyil və bu fərqlilik ölkənin ümumi turizm potensialının səmərəli istifadəsinə ciddi təsir göstərir. Bakı şəhərində müasir turizm infrastrukturu, yüksək xidmət keyfiyyəti və peşəkar kadr təminatı mövcud olduğu halda, əksər regionlarda bu sahələrdə ciddi çatışmazlıqlar müşahidə olunur. Yolların keyfiyyətsizliyi, otel və

qonaq evlərinin azlığı, ictimai nəqliyyatın zəif inkişafı, eləcə də xidmət sahəsində çalışan peşəkar işçi qüvvəsinin çatışmazlığı turistlərin bölgələrə səfər etməsini çətinləşdirir. Bu amillər daxili turizmin genişlənməsinə mane olmaqla yanaşı, xarici turistlərin regionlara yönləndirilməsini də məhdudlaşdırır. Problemin həlli üçün bölgələrdə məqsədyönlü infrastruktur layihələri həyata keçirilməli, turizm obyektlərinə çıxış yolları yenilənməli, xidmət sahəsində çalışan heyət üçün təlimlər və təşviq proqramları təşkil edilməlidir. Bu yanaşma regional turizmin canlanmasına və ümumilikdə ölkənin turizm sektorunun balanslı inkişafına şərait yaradacaqdır.

5. Hazırda Azərbaycanda təklif olunan turizm məhsulları müxtəlif auditoriyaların tələbatına tam cavab verəcək şəkildə fərqləndirilməmişdir və bu, sektorun rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Mədəni, sağlamlıq, kənd, ekoturizm və digər istiqamətlər üzrə turizm potensialı olsa da, bu sahələr üzrə spesifik və hədəflənmiş məhsul xətti kifayət qədər inkişaf etdirilməmişdir. Əksər turizm paketləri standartlaşdırılmış və ümumiləşdirilmiş formada təqdim olunur, bu isə fərqli yaş qruplarının, maraqların və mövsümi ehtiyacların nəzərə alınmasına imkan vermir. Halbuki “Qarabağ mədəniyyət marşrutu”, “Naftalan termal sağlamlıq turu”, “Şəki kulinariya təcrübəsi” və ya “Zaqatala kənd həyatı turu” kimi tematik turların hazırlanması həm daxili, həm də xarici turistlər üçün daha cəlbedici və fərqli təcrübələr təqdim edə bilər. Turizm məhsullarının diferensiallaşdırılması təkcə məmnuniyyət səviyyəsini artırmaqla deyil, həm də ölkənin beynəlxalq turizm bazarlarında mövqeyini möhkəmləndirməklə nəticələnə bilər.

6. “ASAN Visa”, “triptoazerbaijan.az” və digər oxşar platformaların istifadəyə verilməsi Azərbaycanda turizmin rəqəmsallaşdırılması sahəsində mühüm irəliləyişlərdən biri kimi qiymətləndirilə bilər. Bu alətlər xarici turistlər üçün ölkəyə giriş prosedurlarını və məlumat əldə etmə prosesini asanlaşdırır. Lakin bu rəqəmsal imkanların regionlarda geniş şəkildə tətbiqi hələ də məhduddur. Paytaxt Bakıda texnoloji infrastruktur və rəqəmsal xidmətlərə çıxış yüksək səviyyədə olsa da, bölgələrdə internet bağlantısının keyfiyyəti, onlayn bronlaşdırma sistemlərinin yayılması və rəqəmsal ödəniş imkanlarının məhdudluğu turistlərin rahatlığına

mənfi təsir göstərir. Bu səbəbdən rəqəmsal xidmətlərin regionlara inteqrasiyası sürətləndirilməli, texnoloji infrastrukturun inkişafı və yerli turizm subyektlərinin rəqəmsal bacarıqları gücləndirilməlidir. Bu yanaşma turist məmnuniyyətinin artırılması ilə yanaşı, xidmətlərin səmərəliliyinin və turizm sektorunun ümumi rəqabət qabiliyyətinin yüksəlməsinə də şərait yaradacaqdır.

7. Azərbaycanın milli turizm brendi olan "Take Another Look" beynəlxalq platformalarda müəyyən tanınma əldə etsə də, bu brendin regionlar üzrə diferensiallaşdırılması və məhsul yönümlü tanıtımı hələ də kifayət qədər inkişaf etməmişdir. Hal-hazırda brend əsasən ümumiləşdirilmiş formada təqdim olunur, lakin ölkənin müxtəlif bölgələrinin özünəməxsus turizm potensialını əks etdirən fərqli vizual üslub, mesaj və tematik kampaniyalar mövcud deyil. Qəbələ, Quba, Zaqatala, Şəki və digər turizm baxımından zəngin ərazilər özünəməxsus brend kimliyi və marketinq yanaşmaları ilə həm daxili, həm də xarici turistlərin marağını cəlb edə bilər. Buna görə də regional alt-brendlərin hazırlanması, lokal hekayələrin ön plana çıxarılması və hədəf auditoriyalara uyğunlaşan reklam strategiyalarının tətbiqi, turizm bazarında Azərbaycanın rəqabət mövqeyini gücləndirə bilər.

8. Turizm sahəsində insan kapitalının formalaşdırılması və peşəkar kadr hazırlığı ilə bağlı ciddi çatışmazlıqlar mövcuddur ki, bu da xidmətlərin beynəlxalq standartlara uyğunluğunu məhdudlaşdırır. Sektor üzrə fəaliyyət göstərən əməkdaşların böyük bir qismi sistemli və ixtisaslaşmış təlim keçmədiyindən, xüsusilə xarici turistlərlə ünsiyyət, xidmət mədəniyyəti və operativ problem həlli bacarıqları zəif səviyyədə qalır. Bu vəziyyət turizm sektorunun rəqabət qabiliyyətinə və müştəri məmnuniyyətinə mənfi təsir göstərir. Otelçilik, turizm menecmenti, bələdçilik və digər xidmət sahələri üzrə müasir tələblərə cavab verən təhsil proqramları hazırlanmalı, beynəlxalq təcrübəyə əsaslanan kadr hazırlığı və sertifikatlaşdırma sistemləri qurulmalıdır. Bu, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsində və Azərbaycanın turizm imicinin gücləndirilməsində mühüm rol oynaya bilər.

9. Ətraf mühitin mühafizəsi və davamlı inkişaf prinsiplərinə əsaslanan turizm siyasətləri Azərbaycanda hələlik yetərincə effektiv tətbiq edilmir, baxmayaraq ki, ölkənin ekoturizm sahəsində geniş və

zəngin potensialı mövcuddur. Hal-hazırda ekoturizm fəaliyyəti əsasən fərdi təşəbbüslər və izolyasiya olunmuş layihələrlə məhdudlaşır, bu isə sahənin sistemli inkişafına mane olur. Davamlı turizmə keçidin təmin edilməsi üçün mövcud hüquqi baza təkmilləşdirilməli, ekoloji standartlara uyğun sertifikatlaşdırma mexanizmləri hazırlanmalı və təbii sərvətlərin qorunması istiqamətində ardıcıl və koordinasiyalı tədbirlər həyata keçirilməlidir. Bu yanaşma yalnız turizm sektorunun dayanıqlığını artırmayacaq, eyni zamanda Azərbaycanın beynəlxalq ekoloji öhdəliklərinə uyğun fəaliyyətini də gücləndirəcəkdir.

10. Turizm sahəsi investorlar üçün potensial baxımından cəlbedici olsa da, faktiki investisiya axını hələ də kifayət qədər geniş vüsət almamış və əsasən paytaxt və iri şəhərlərlə məhdudlaşmışdır. Xüsusilə regionlara yönəlik investisiyaların səviyyəsi aşağıdır ki, bu da bir sıra amillərlə, o cümlədən maliyyə risklərinin yüksəkliyi, hüquqi və institusional mühitin qeyri-müəyyənliyi, eləcə də investorlara yönəlik təşviq mexanizmlərinin zəifliyi ilə əlaqələndirilir. Bu problemi aradan qaldırmaq üçün regionlar üzrə məqsədyönlü investisiya strategiyaları hazırlanmalı, güzəştli kreditlər, vergi imtiyazları və hüquqi təminatlar nəzərdə tutan fərdi investisiya paketləri formalaşdırılmalıdır. Bu cür yanaşma regionlarda turizmin inkişafını stimullaşdırmaqla yanaşı, iqtisadi fəallığın balanslaşdırılmasına da töhfə verə bilər.

11. Turizm sahəsində mövcud normativ-hüquqi baza müasir dövrün tələblərinə tam cavab vermədiyindən, bu sahənin ayrı-ayrı istiqamətləri üzrə spesifik hüquqi tənzimləmə mexanizmlərinin hazırlanmasına ehtiyac duyulur. Xüsusilə ekoturizm, aqroturizm, sağlamlıq və tibbi turizm kimi sahələrdə hüquqi çərçivə ya ümumi şəkildə təqdim olunur, ya da tamamilə mövcud deyil. Nəticədə, bu istiqamətlərdə fəaliyyət göstərən subyektlər üçün keyfiyyət standartlarının tətbiqi, vergi güzəştlərinin müəyyən edilməsi və investisiya hüquqlarının qorunması sahəsində ciddi boşluqlar yaranır. Bu səbəbdən normativ bazanın təkmilləşdirilməsi sahənin inkişafını sürətləndirmək və hüquqi şəffaflığı təmin etmək baxımından zəruri hesab olunur.

12. Turizm sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsi üçün dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlıq modeli qurulmalıdır. Dövlət tərəfindən normativ-hüquqi baza və maliyyə

dəstəyi təmin edilməli, özəl sektor isə innovativ təşəbbüslərlə bazara rəqabətədavamlı məhsullar çıxarmalıdır. Bu əməkdaşlıq yalnız infrastruktur layihələri ilə məhdudlaşmamalı, eyni zamanda yeni turizm marşrutlarının yaradılması, xidmət keyfiyyətinin yüksəldilməsi və beynəlxalq bazarlarda tanıtım sahəsində də həyata keçirilməlidir. Dövlət-özəl əməkdaşlığı şəffaflıq və qarşılıqlı məsuliyyət prinsipləri üzərində qurulmaqla, sektorun dayanıqlılığı və beynəlxalq rəqabətə davamlılığı təmin edilə bilər.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərində öz əksini tapmışdır.**

1. İsmayılov, İ.Ə. Turizm resurslarından maksimum istifadənin metodologiyasının prinsipləri // – Bakı: “ENECO” Enerji İqtisadiyyatı Mərkəzinin Xəbərləri, – 2024, – vol. 17, №.01, – s.60-70.
2. İsmayılov, İ.Ə. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda turizm sənayesinin tərəqqisinə verdiyi töhfələr // – Bakı: “Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda respublika elmi-praktiki konfrans, – s. 226-229.
3. İsmayılov, İ.Ə. İnkişaf potensialının ölkənin turizm sektorunun rəqabət qabiliyyətliliyinə təsiri // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnalı, – 2025, № 1 (76), – s.184-193 .
4. İsmayılov, İ.Ə. Turizm sahəsinin inkişafına dair dünya təcrübəsi // – Bakı: “Audit” elmi – praktiki jurnal, – 2025, 2 (48), s.128-136.
5. İsmayılov, İ.Ə. Azərbaycanda turizm sənayesi potensialından səmərəli istifadə edilməsinin müasir vəziyyəti // – Bakı: Statistika xəbərləri, – 2025, № 2, – s. 43-51.
6. Ismayilov, I.A. Development dynamics of the tourism sector in Azerbaijan // Конкурентоспособность в глобальном мире: экономика, наука, технологии. Научный рецензируемый журнал, – Пенза: № 6, – pp.140-143.
7. Ismayilov, I.A. Development prospects of the tourism sector of the national economy // Актуальные вопросы развития науки и современного общества, – Москва: 2025, – pp. 53-56.
8. İsmayılov, İ.Ə. Turizm sənayesində “potensial” kateqoriyasının mahiyyətinin müəyyən edilməsinə nəzəri yanaşmalar // – Bakı: “Yeni

reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, – 5 dekabr 2025, – s. 568-571.

Dissertasiyanın müdafiəsi 30 sentyabr 2026-cı il tarixdə, saat $16^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 avqust 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.06.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 43860 işarə

Tiraj: 100